“Xalq qəzeti”nin kitab rəfi

# Təbrizin “Azərbaycan”ı Bakıda

**AMEA Şərqşünaslıq İnstitutunda 1945–1946-cı illərdə Təbrizdə nəşr etdirilmiş Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin orqanı “Azərbaycan” qəzeti materiallarının 1-ci hissəsi dilimizə tərcümə və transliterasiyada kitab şəklində çap olunub.**




“Azərbaycan” qəzetinin ilk sayı 5 sentyabr 1945-ci il tarixində çap olunmuş və Azərbaycanda milli-demokratik hərəkatın süqutunadək (12 dekabr 1946-cı il) 370 sayı dərc edilmişdir. Qəzet 1945-1946-cı illərdə Cənubi Azərbaycan Milli Hökumətinin ictimai, iqtisadi, siyasi və mədəni sahələr üzrə həyata keçirdiyi islahatları, bütün İran miqyasında demokratik hüquqlar uğrunda mübarizəsini əks etdirib. Bundan əvvəl qəzetin farsca və əski əlifbada azərbaycanca mətnlərini orijinal şəkildə Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə 4 hissədə çapa hazırlamışdır.

Kitabın “Ön söz”ünün müəllifi Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyevadır.

## Zəngəzurun yer adları

Coğrafiya üzrə fəlsəfə doktoru Natiq Babayevin “Şərqi Zəngəzur oykonimlərinin coğrafiya, tarix və dilçilik baxımından tədqiqi” monoqrafiyası işıq üzü görüb.

Zəngəzur adının və soydaşlarımızın Qərbi Zəngəzura zəruri qayıdışının gündəmə gəldiyi və Prezident fərmanı ilə, erməni işğalından azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası ilə bağlı iqtisadi rayonların tərkibinə yenidən baxılaraq, beş ulusun Şərqi Zəngəzur adı altında birləşdirildiyi tarixi bir dövrdə bu mövzuya üz tutulması təqdirəlayiqdir. Bildiyimiz kimi, tarixən Zəngəzurdakı yer-yurd adlarının 95 faizə qədəri türk-oğuz-müsəlman mənşəli olub. Lakin Şərqi Zəngəzur regionu 30




il ərzində erməni nankorların işğalı altında olan zaman toponim soyqırımına da məruz qalıb və adlar erməniləşdirilib. Əsər bu saxtakarlığın ifşası baxımından dəyərli sayılmalıdır.

Monoqrafiyada Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan, habelə uzun müddət 1861-ci ildə yaradılmış Zəngəzur qəzasında birləşən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayılın söz abidələrindən bəhs edilir.

Kitabın baş redaktoru Zakir Eminov, elmi redaktoru Mahirə Abbasova, rəyçiləri isə Qasım Hacıyev və Nazim Tapdıqoğludur. Əsərdə etnotoponimlər hərtərəfli öyrənilir, oğuzların bu ərazilərin aborigen sakinləri olduğu bir daha tutarlı faktlarla sübuta yetirilir.

**Ə.ƏLİYEV,**
**“Xalq qəzeti”**